Dəqiqləşdirmək heç zaman gec deyil

Sabir Rüstəmxanlı

Alim-yazıçı Ədalət Tahirzadə öz istedadını böyük tarixi əhəmiyyəti olan bir sahəyə - xalq hərəkatının və müstəqilliyimizin bərpasının salnaməsini yaratmağa sərf etmiş və uğurlu kitablar yazmıdır. Təkcə ikicildlik "Meydan" salnaməsi onun zəhmətinin miqyası və dəyərini göstərməyə bəs edərdi.

1988-ci ildə 18 gün davam edən meydan hadisələrini və xalq hərəkatının sonrakı taleyini, təşkilatlanmasını, mübarizə yolunu günbəgün, saatbasaat izləyən Ədalət bəy o hadisələrin təşkilatçısı və iştirakçısı olan bizlərin də izləməyə imkan tapmadığı çox şeyləri görüb yazıya alıb, unudulmağa qoymamışdır.

18 günlük Meydan mitinqlərini idarə edənlərdən biri kimi mən həmin günlərdə xeyli material toplamışdım, rayonlardan gələn məktublar, teleqramlar, meydanlardan verilən təkliflər, qeydlər... Təəssüf ki, onların hamısı meydan dağıdılan gecə nümayiş komitəsinin otağında məhv edilmişdi.

Uzun illər Əbülfəz Elçibəylə bərabər çalışmış, sonralar onun mətbuat katibi olmuş Ədalət Tahirzadə bu fürsəti vaxtında, düzgün qiymətləndirmiş və Əbülfəz bəyin həm akademiyadakı elmi fəaliyyət dövrünü, həm xalq hərəkatına başçılıq elədiyi illəri, həm də müstəqil dövlətin prezidenti olduğu vaxtın hadisələrini diqqətlə izləyib yazıya almışdır.

Bunlar tarixi işlərdir və zamanı keçdikcə dəyəri də artacaq.

"Prezident Elçibəy" kitabına ön sözündə Mirmahmud Mirəlioğlu, haqlı olaraq, Elçibəyin Haqqa bağlı olduğundan, Haqq sevgisindən bəhs edir.

Məhz bu baxımdan həm Elçibəy haqqında kitabda, həm də özümüzün də içində olduğumuz tarixi hadisələr haqqında yazıların həqiqətə uyğunluğu qələm əhlinin borcu olmaqla yanaşı, həm də Elçibəyin ruhuna hörmətdir.

Həm "Meydan", həm də "Prezident Elçibəy" kitablarıyla bağlı müəyyən iradların olsa da (xüsusən "Meydan"da müəllifin gözündən yayınmış, diqqətdən kənarda qalmış, subyektiv münasibətlərdən doğan çox şeylər var), bunda müəllifi günahlandırmaq niyyətim yoxdur. O, gördüyünü və eşitdiyini, daha doğrusu, "öz meydanını" yazıb; meydan o qədər nəhəng bir olaydı ki, onu bir-iki kitabla əhatə etmək çətindir, yəni bu illər haqda hələ çox yazılacaq və yazıldıqca da mənzərə tamamlanacaq.

Bir sözlə, nəyinsə unudulması, kitabda düşməməsi dərd deyil, amma Azərbaycanın taleyində faciəli rol oynamış və hər kəsin xüsusi həssaslıqla yanaşdığı hadisələrlə bağlı təhriflərə yol veriləndə, oxuculara yanlış bilgilər çatdırılanda susmaq olmaz. Sabah biz bu dünyadan köçəndə bu səhvləri düzəldən olmayacaq, yalan həqiqət cildində görünəcək...

Ədalət bəy mötərizədə yazır: "Əslində belə bir komissiya yoxdu - İmam Mustafayev, Fərəməz Məqsudov, Arif Rəhimzadə, Asya Manafova, Sabir Rüstəmxanlı, Əsədulla Qurbanov və b. prezidentin yanına gələrək "vəziyyətdən narahat olduqlarını" bildirmişdilər və prezident də onlara özləri istəmədiyi halda Gəncəyə gedərək vəziyyəti öyrənməyi məsləhət görmüşdü; sonralar onlar özlərinə dövlət komissiyası statusu verilməsini tələb edirdilər. Pənah Hüseynovun mənə söylədiyinə görə, prezidentin yanına gəlməkdə onların əsas məqsədi H.Əliyevi Bakıya çağırmağı təklif etməkdi, əncaq buna cəsarətləri çatmadı, bəziləri vəzifə istəməyə başladı".

"Prezident Elçibəy" kitabında mənim adım dörd dəfə çəkilib, onun üçü Gəncə hadisələriylə bağlıdır. Mən bu hadisələrə münasibətimi, ora barışığa gedən komissiyaya necə düşməyimi, Gəncədə mənə münasibəti, orada hansı sənədlərin hazırlandığını, qayıdandan sonra Elçibəylə görüşümüzü və söhbətlərimizi, komissiyanın hazırladığı arayışın MM-ə necə gəlib çıxdığını və arayışı niyə mənim oxuduğumu dəfələrlə yazmışam, az qala hər il Gəncə hadisələri ərəfəsində qəzetlərə verdiyim müsahibələrdə bu məsələlərə aydınlıq gətirmişəm. Təəssüf ki, Ədalət Tahirzadə ya mənim fikirlərimi oxumayıb, ya da oxuyub əhəmiyyət verməyib, məsələlərə işdən xəbərsiz adamlar kimi yanaşıb...

Hələ onu demirəm ki, Elçibəy dövründə mən mətbuat və informasiya naziri, vəkil vəkiliydim. Müstəqil dövlətin islahatların ilk növbədə elə mətbuatdan, əlifbadan, dərsliklərdən başlanmışdı və bunların xatırlanmasından kitaba ziyan dəymədi, dövlət fəaliyyətinin mənzərəsi daha bütöv görünərdi.

Təəssüf ki, Ədalət bəyi mənim milli dövlətin quruculuğundakı, Milli Məclisdəki xidmətlərim yox, daha çox Gəncə komissiyası maraqlandırmışdır və bu komissiya barədə fikrimi soruşub faktları dəqiqləşdirməyə də ehtiyac görməmişdir. Halbuki kitabda neçə-neçə adamın şifahi söhbətlərinə istinadlar var...

Kitabın 338-ci səhifəsində yazılır: "6 iyunda Bəyin yanına gileyə gəlmiş deputatlar və "ağsaqal"lardan ibarət "komissiya" vəziyyəti yerindəcə öyrənməkçün Gəncəyə göndərildi".

351-ci səhifədə həmin hadisəyə qayıtmaqla müəllif münasibəti bir az da "aydınlaşdırır":

"İqtidarın qanlıbıçaq düşməninə çevrilmiş Rəhim Qazıyev Gəncə hadisələrini öyrənən "dövlət komissiyası"nın Milli Məclisdə hesabat verməsini tələb etdi". Bundan sonra mənim o tərkiblə Elçibəyin yanına giley-güzara getməyim mümkün olan iş deyildi, bu, uydurmadan və qərəzdən başqa bir şey deyil.

Həqiqət budur ki, həmin axşam, gecə saat 11-də Prezident Aparatından zəng vurub Elçibəyin adından bildirdilər ki, sabah tezdən Nazirlər Kabinetinin həyətində olmalıyam, ağsaqqallarla birgə Gəncəyə gedəcəyəm.

Gəncədə nələr baş verdiyini yalnız ayın 7-si Nazirlər Kabinetinin həyətində öyrəndim və yalnız orada bildim ki, bəzi adamlar gecə prezidentlə görüşüblər, Elçibəy onlara Gəncəyə getməyi məsləhət görüb və sonra tapşırıb ki, "bizim adamlardan" da biri getsin bunlarla; amma bu "bizim adam" xalq arasında tanınan, qəbul olunan bir adam olmalıymış. Mənim "komissiyaya" düşməyim belə olub, özüm minnətə getdiyimə görə yox!..

Yol boyu söhbətlərdən bəlli oldu ki, Elçibəy ağsaqqalları araşdırma aparmağa, kimin haqlı, kimin haqsız olduğunu öyrənməyə göndərməyib; məqsəd birdi: atışma dayansın, tərəflər geri çəkilsin, qan tökülməsin. Bizim məqsədimiz buydu və həmin gün də geri qayıtmalıydıq.

Əslində mənim adım Gəncəyə gedənlərin siyahısına əlavə olunanda gərək işin içində olan rəsmilərdən kimsə mənə zəng vurub baş verənlər haqqında düzgün bilgi verəydi. Belə olsa, ya mən Gəncəyə getməz, ya da orada daha məlumatlı hərəkət edərdim.

Gəncəyə məhz bu şəkildə xəbərsiz göndərilməyimin məqsədi sonralar da mənə qaranlıq qaldı. Surət Hüseynovun ətrafındakılardan bir neçəsi məni gördən kimi "onu da girov götürməliyik" deyə əsib çəydular, yalnız İmam Mustafayevin, Şeyxülislam Hacı Allahşükür Paşazadənin və Arif Rəhimzadənin "biz barışığa gəlmişik, belə söhbətlər ayıbdır" deyə ciddi etirazlarından və əsgərlərin mənə münasibətini görəndən sonra Surət Hüseynov həmin adamları susdurdu.

Arayışın yazılmasını Surət Hüseynov tələb elədi: hərbi prokurorun təqdim elədiyi və sonradan məmin o tərkiblə Elçibəyin yanına giley-güzara getməyim mümkün olan iş deyildi, bu, uydurmadan və qərəzdən başqa bir şey deyil.

Bakıya qayıdandan, Elçibəy həmin arayışla tanış olandan sonra mən "Bəy, bu arayışı MM-də oxumaq olmaz!" - dedim. "Nə təklif edirsən?" - deyə soruşdu. Mən "xalqı sakitləşdirən, yığcam, məsələnin əsl mahiyyətini göstərən bir müraciət hazırlayım, onu televiziya və radioda oxusunlar, bununla da iş bitsin" - dedim. Razılaşdıq. Elə iqamətgahdaca bir kənara çəkilib müracieti yazıb verdim və Gəncədən gələn arayışın oxunmayacağına əminliklə MM-ə getdim.

Amma MM-də bir çox deputatlar "komissiyanın hesabatını" tələb edirdilər, iki saatdan sonra Əbülfəz bəylə İmam Mustafayev gəldi. İmam Mustafayevə söz verildi. Amma nə qədər qəribə olsa da, o, Gəncədə yazılmış arayışı oxumağa başladı. Deməli, Əbülfəz bəylə razılaşmışdılar.

Bir neçə cümlədən sonra "Mənim gözüm yaxşı görmür, aramızda Sabir cavandı, qoy o oxusun" deyə məni dəvət elədi. O vaxt televiziyaya baxan bütün Azərbaycan bunun şahidiidir. Mənim imtina etmək imkanım yox idi, digər tərəfdən, "indi ki, razılaşıblar, oxuyanda nə olacaq", - deyə düşündüm.

Hadisə belə olmuşdu və Məclis razılıqsız-filansız translyasiya edilirdi...

Pənah Hüseynovun ağsaqqallar "H.Əliyevi Bakıya çağırmağı təklif etmişdilər" fikrinə gəlincə, deməliyəm ki, mənə aid olmasa belə, bu sözlər qəribə səslənir, çünki kitabın 338-ci səhifəsinə görə, həmin təklif iyunun 5-də məhz baş nazir Pənah Hüseynovun dilindən səslənib. Baş nazir Pənah Hüseynov Surət Hüseynov təhlükəsindən danışaraq "vəziyyətdən çıxış yolu kimi Heydər Əliyevin Bakıya dəvət edilməsini təklif etdi" və "Pənah Hüseynov Rəsul Quliyevə Heydər Əliyevlə əlaqə saxlamaq tapşırığı" verdi... Belə olan halda ağsaqqalların missiyası Pənah Hüseynova niyə qəribə gəlməliydi ki?!.

Mənim komissiya tərkibinə Elçibəy tərəfindən salındığımı, onun iqamətgahında ayrı arayış yazdığımı, İmam Mustafayevin arayışını təsadüfən oxuduğumu nəzərə almayan müəllif məni də dəstəyə qatıb gözdən salmağa çalışdığı halda Gəncədə baş verən, mənim mövqeyimin nə qədər prinsipial olduğunu göstərən başqa bir faktın üstündən müommalı bir şəkildə ötür.

338-ci səhifədə oxuyuruq: "Komissiya" tamamilə başqa məqsədlər güddüyündən onu qardaş qırğınından dayandırılması yox, daha da alovlanması maraqlandırır" (*Məsuliyyət tələb edən ittihamdır.* - S.R.).

Müəllif davam edir: "Çox çəkmədən onların "Azərbaycan xalqına müraciət"i geniş yayıldı. Mənim müraciət belə bitirdi: "Əziz həmvətənlərimiz! Sizin hamımızı ayağa qalxıb haqq səsini ucaltmağa, qardaş qırğınına gətirib çıxaran hazırkı iqtidara qarşı vətəndaş itaətsizliyinə, Vətənimizin taleyinə qarşı əsl övlad qayğıkeşliyi göstərməyə çağırırıq.

1. AMİP - Şadman Hüseynov, Milli Məclisin üzvü
2. ASDP - Əliyev Aypara, Gəncə şəhər məclisinin üzvü
3. AAƏB "Turan", - Nemət Pənahlı
4. Sabir Rüstəmxanlı (imzası yoxdur)
5. Arif Rəhimzadə
6. Asya Manafova
7. Əli Ömərov" və s.

"İmzası yoxdur" sözlərini oxucu necə yozsun? Adını yazıb, imza atmayıb? Görəsən, həqiqət niyə gizlədilir? Niyə yazılmır ki, Sabir Rüstəmxanlı Gəncədə Surət Hüseynovun adamlarının bütün təkliflərinə - "imza atmayanlar bu-radan getməyəcək" kimi hədə-qorxularına baxmayaraq, bu iyrənc sənədi rədd edib, ona imza atmayıb?

Əslində, həmin müraciətdəki "vətəndaş itaətsizliyinə çağırış" sözləri məni özümdən çıxarmışdı, "bu, düşmənçilikdir, düşmən Gəncənin başının üstünü alıb, siz də itaətsizliyə çağırırsınız, mən bu hakimiyyətdə təmsil olunuram və ona qarşı itaətsizliyə çağırmaram" demişdim. Nemət Pənahlı Allah şahididi.

Hansı maraqla mənim mövqeyimi göstərən belə faktların üstündən keçilir, hadisələr təhrif olunur?..

"Prezident Elçibəy" kitabı xeyli vaxtdır nəşr olunub. Toxunduğum bu məqamların "xırda şeydir" deyə üstündən keçmək də olardı. Amma bu, tarixdir. Xalq hərəkatının mənəvi-ideoloji təməlinin hazırlanmasında, idarə edilməsində, təşkilatlanmasında, nəhayət, milli dövlətimizin bərpasında, on beş ildən bəri davam edən milli mücadilə yolumuzda zərərəbinlə qüsur axtaranlar başqa şey tapa bilməyəndə bu Gəncə komissiyası məsələsini ortaya atırlar.

Nə qədər ki özümüz sağıq və şahidlər var, qəsdli, ya qəsdsiz yanlışlıqlar aradan qaldırılmalı, hər şeyə haqq ölçüsüylə yanaşılmalıdır...

İstərdim ki, Ədalət bəyin yaxın tariximizə münasibəti həmişə adına yaraşan bir səviyyədə olsun!..